# AZƏRBAYCAN KƏNDİNDƏ İNZİBATİ-AMİRLİK SİSTEMİNİN FORMALAŞMASI

**Cəfər CƏFƏROV**

Azərbaycan Turizm İnstitutu
Bakı / AZƏRBAYCAN

*jafar_jafarov@hotmail.com*

**XÜLASƏ**

Məqalə Azərbaycan tarixinin ən gərgin dövrlərindən olan 1920-ci illərin sonu-1930-cu illərdə kənddə həyata keçirilmiş elliklə kollektivləşmə siyasətinə və onun yaratdığı inzibati-amirlik sisteminin formalaşmasına həsr olunmuşdur. Azərbaycanda yeni iqtisadi siyasət dövründə aqrar münasibətlər, kəndli kooperasiyaları, kənddə sinfi mübarizə problemi, 30-cu illər repressiyasının gedişində kənd təsərrüfatın; inkişaf etdirməyə qadir təşəbbüskar insanlardan məhrum edilməsi, kollektivləşmənin acı nəticələri və digər problemlər tədqiq edilir. Müəllif düşünür ki, 20-ci illərin axırlarında yeni iqtisadi siyasətdən imtina edilməsəydi, kiçik və orta sahibkarlığın inkişafına imkan verilsəydi, kənddə kooperasiyanın müxtəlif formalarının, habelə fermer təsərrüfatının paralel inkişafına şərait yaradılsaydı, milyonların həyatı bahasına başa gələn faciələrdən yan keçmək, ölkənin real inkişafına nail olmaq mümkün olardı. Sovet hökumətinin 20-ci illərin axırları-1930-cu illərdə irəli sürdüyü yeni siyasi xətt - kütləvi kollektivləşdirmə, inzibati-amirlik sisteminin formalaşdırılması və ondan doğan kütləvi represiyalar SSRİ-nin bütün regionlarında olduğu kimi Azərbaycanda da əhalinin geniş təbəqələlərinin narazılığına səbəb olmuşdu. Yeni mənbələrin elmi istifadəsi və elmi dövriyyəyə buraxılması məsələnin mahiyyətinin daha dərindən açılmasına xidmət edir.

**Açar sözlər:** Azərbaycan kəndi, kooperasiya, inkişaf, inzibati-amirlik sistemi

## ABOUT THE GREATION OF THE ADMINISTRATIVE-COMMAND SYSTEM IN AZERBAIJAN VILLAGE

**ABSTRACT**

The article has been dedicated to the research of the processes which happened in the Azerbaijani village at one of the most conflicting and strained periods of our history. The research of the feature of the collectivization policy in agriculture in Azerbaijan, leading by Soviet pour in 1920-30 distinguished with its cruelty and tragedy. The research work describes socio-economic and social situation in the Azerbaijani village at the end of 20s and investigates the appliance of different forms of cooperation to the end of a new economic policy, investigates the beginning and the course of the new economic direction in the Azerbaijani village. It analyses the socio-economic and political situation at the period of refusal from NEP and confirmation of the administrative-team system in the Azerbaijani village under the terms of a new political line-mass collectivization of agriculture, investigates the measures taken by force aimed at the collectivization, and the result of these processes, investigates the reasons of the rebellions and their outcomes, the repressions in the Azerbaijani village. Drawing in the sources new by content and character helps the comprehensive coverage of the problems.

**Key words:** Azerbaijani village, cooperation, development, administrative-comand system

## Giriş

Azərbaycanda yeni iqtisadi siyasət dövründə aqrar münasibətlər, kəndli kooperasiyaları, kənddə sinfi mübarizə problemi, 30-cu illər repressiyasının gedişində kənd təsərrüfatın; inkişaf etdirməyə qadir təşəbbüskar insanlardan məhrum edilməsi, kollektivləşmənin acı nəticələri və digər problemlərin yenidən tədqiqi elmi və siyasi aktuallıq kəsb edir.

Son dövrdə yazılan əsərlərin əksəriyyəti üçün xarakterik cəhət ondan ibarət idi ki,

bu əsərlərdə əsasən kommunist rejiminin mahiyyəti deyil, ayrı-ayrı şəxslər tənqid edilir, sovet dövrü tarixində baş vermiş faciələrin əsas səbəbkarı kimi rejim deyil, rəhbərlikdə olmuş şəxslər günahlandırılırdı. O dövrdə Azərbaycan kəndinin sosial strukturunda, sosial iqtisadi həyatında baş verən dəyişiklikləri əks etdirən statistik uçot aparılmırdı, bu səbəbdən arxivlərdə və dövri mətbuatdakı məlumatlar bu dəyişikliklərin yalnız təxmini mənzərəsini əks etdirir. Mövzunun çox zəngin, müxtəlif dövrlərinə aid ziddiyyətli mənbəşünaslıq bazasının olması onlara ciddi, tənqidi və müqayisəli yanaşmanı tələb edir.

20-ci illərin ortalarında sənayeləşmənin sürətini artırmaq üçün maddi-texniki baza yox idi. Bu zaman xarici ölkələrdən kapital almaq mümkün deyildi, ölkədə olan xüsusi kapitalı isə dövlət ağır sənayeyə buraxmaqdan imtina edir, yeni iqtisadi siyasətin əvvəllərində əməkdaşlığa məcbur olduğu xüsusi kapitalistlərlə ehtiyatla davranaraq, onlara düşmən münasibət bəsləməyə başlamışdı. Artıq ölkənin hər yerində əhalinin gündəlik tələbat malları ilə təmin edilməsi get-gedə daha da çətinləşir, onları ilkin tələbat malları ilə təmin etmək mümkün olmurdu. Belə bir şəraitdə şəhərlə kəndin iqtisadi cəhətdən inkişafı arasında tənasüb pozulmağa başladı. Kənd təsərrüfatı mallarına olan ehtiyacın daha da artması, kənddə azad ticarətin, iqtisadi sərbəstliyin və azad rəqabətin inkişafı kəndlilərin varlanmasına səbəb oldu. Xüsusi kapital dövlət ticarətinin zəif olmasından istifadə edərək kənddə ticarət dövriyyəsinin 90%-ə qədərini öz əlinə almışdı. Bu zaman kənd təsərrüfatının inkişafı üçün lazım olan texnikanı dövlətin inhisarında olan ağır sənaye müəssisələri vermək imkanına malik deyildi. Bundan başqa şəhərdə fəhlə sinfinin sayı gündən-günə artır və bu da kənd təsərrüfatı mallarına olan tələbatı gücləndirir və buna müvafiq olaraq həmin malların qiymətləri də durmadan artırdı. Sovet dövlətinin apardığı səhv siyasət nəticəsində kənd təsərrüfatı məhsullarının qiyməti ilə sənaye mallarının qiymətləri arasında tənasüb pozulur, kəndlilərin dövlətə məhsul satmaq üçün yeni iqtisadi siyasətin əvvəlki illərində yaranmış stimul tədricən aradan qalxırdı. Artıq kəndlilər dövlətin müəyyən etdiyi aşağı qiymətlərlə məhsullarını satmaq istəmir, köhnə şərtlərlə şəhəri ərzaqla təmin etməyə maraq göstərmir, xarici bazara çıxmağa can atırdılar. Sovet dövləti isə xarici ticarət üzərində olan inhisarını ləğv etmək istəmirdi. Belə bir vəziyyət tədricən ziddiyyətlərin daha da kəskinləşməsinə gətirib çıxardı. Məhz bu şəraitdən istifadə edən kommunist partiyası və sovet hökuməti yeni iqtisadi siyasətin prinsiplərindən əl çəkməyə, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında inzibati amirlik metodlarını tətbiq etməyə başladı. Həyata keçirilən bu yeni siyasi xəttin əsas məqsədi ilk növbədə şəhərin kənd üzərində inzibati nəzarətinin yaradılması, bazar münasibətlərinin ləğv edilməsi, istehsalçının iqtisadi sərbəstliyinin əlindən alınması, zor gücünə şəhərin kənd təsərrüfatı malları ilə təchiz edilməsi və bu yolla sənayeləşmənin gücləndirilməsini təmin etməkdən ibarət idi. Məhz buna görə də sovet dövləti iqtisadiyyatın tənzimlənməsində inzibati üsulların daha da genişləndirilməsinə, bütün qüvvələri zor gücünə də olsa, səfərbərliyə alınmasına yönəltmək siyasətinə üstünlük verdi. ÜİK(b)P XV qurultayında Yeni İqtisadi Sistem prinsiplərini möhkəmləndirmək kursu təsdiq edilsə də, güclənən iqtisadi çətinliklər iqtisadiyyatda inzibati amirlik metodlarını labüd etdi.

## Kəndlərdə İnzibati-Amirlik Sisteminin Formalaşması Prosesi

Kollektivləşmənin birdən və geriyə baxmadan sürətləndirilməsi tendensiyası Stalin və onun ətrafının bütövlükdə mövqeyini əks etdirirdi. Bunun əsasında məlum qlobal maraqlardan başqa, kəndlilərin əhvali -

ruhiyyəsinə tam etinasızlıq, onların bu proseslərə hazır olmadıqları və onların şəxsi təsərrüfatlarından imtina etmək istəmədiklərinin nəzərə alınmaması dururdu. Bununla bağlı, AK(b)P MK-nın 1929-cu il dekabr plenumunun respublikada yerli xüsusiyyətləri nəzərə almadan kollektivləşmə sürətinin gücləndirilməsi barədə yanlış qərarı, hətta Mərkəzi Komitənin 1930-cu il 5 yanvar qətnaməsindən sonra da dəyişilmədi. Kolxoz quruculuğunun şişirdilmiş faizləri artırdı. Əgər 1930-cu ilin yanvar ayının 1-i üçün respublikada 11,6 min təsərrüfatı olan 535-ə yaxın kolxoz var idisə, yanvarın 15-nə 74,7 min təsərrüfatı olan 1500-ə yaxın kolxoz oldu. Dağlıq Qarabağda yanvarın 1-dən martın 10-na kimi kollektivləşmə faizi 4,5% -dən 63%-ə qədər, Samux rayonunda 2,4%-dən 66%-ə qədər artdı. 1930-cu ilin fevral ayının ortalarına Bərdə dairəsində yaranan 134 kolxozdan 100-ə yaxını yalnız sənəddə mövcud idi.[1] 1930-cu ilin ikinci yarısından etibarən yenidən respublikada kolxoz hərəkatı "yüksələn xətt " üzrə getməyə başladı. 1930-cu il sentyabrın 1-dən noyabrın 20-dək respublikada kollektivləşmiş təsərrüfatların sayı artaraq 53216-ya, kollektivləşmənin faizi isə 15,6-ya çatdı. Azərbaycanın bəzi rayonlarında kollektivləşmə başqalarına nisbətən daha "sürətlə" getmişdi. Ümumiyyətlə, 4 ay ərzində, yəni 1930-cu ilin sentyabrın 1-dən 1931-ci il yanvarın 1-nə kimi kollektivləşmə faizi 12,3-dən 16,3-ə qalxmışdı.[2]

1931-ci ilin ortalarına qədər respublikada bir sıra rayonlarda kollektivləşmə artıq başa çatmışdı. İyul ayının 1-nə olan məlumata görə kənd təsərrüfatının 39,9 faizi, o cümlədən pambıqçılıq rayonlarında 54 faiz kolxozlarda birləşmişdi.[3] UİK(b)P-nin XVI qurultayı kənd təsərrüfatında "səhv və əyintiləri" pislədi. Bütün qeyri-taxılçılıq rayonlarının partiya təşkilatlarının, həmçinin şərq respublikalarının və vilayətlərinin diqqəti bu rayonlarda kütləvi kolxoz hərəkatına böyük hazırlıq işinin inkişaf etdirilməsinin zəruriliyinə yönəldildi.[4] AK(b)P MK X qurultayında (31 may - 4 iyun 1930-cu il) kolxoz hərəkatının sonrakı inkişaf məsələləri müzakirə edildi. Qurultay, MK və yerli təşkilatlara qısa müddətə səhvləri aradan qaldırmağı, kənd partiya təşkilatlarını yad ünsürlərdən təmizləyib, onları siyasi cəhətdən kamil Bakı fəhlələrinin hesabına gücləndirməyi, qolçomaqlarla qəti mübarizə, onların istismarçı meyllərinin inkişafını məhdudlaşdırmasını tövsiyə etdi.[5]

Bir tərəfdən sürətlə kollektivləşmə davam edərkən digər tərəfdən süni olaraq yaradılmış kolxozlar dağılmağa başladı. Cəmi 1 ay 10 gün ərzində, yəni 1930-cu il aprelin 1-dən mayın 10-a qədər respublikada kənd təsərrüfatı kollektivlərinin sayı 1347-yə, onlarda birləşən kəndli təsərrüfatlarının sayı isə 98031-ə endi. Buna əsas səbəb süni surətdə kağız üzərində yaradılmış kollektivlərin dağılması idi. Saxta kolxoz yaradılması prosesi Azərbaycanın bütün bölgələrində baş vermişdi. AK(b)P MK-sı buraxılmış səhvlərin miqyasına görə Azərbaycanın SSRİ miqyasında birinci yerdə getdiyini etiraf etmişdi.[6] Əmtəə-pul münasibətlərini aradan götürülməsi, əməyi həvəsləndirən maddi stimulların rolunun azaldılması, sosial-iqtisadi vəzifələrin yerinə yetirilməsində inzibati amirlik metodlarının tətbiqi gəlirli təsərrüfatların təməlini sarsıtmağa başladı. Dövlət tərəfindən müəyyən edilmiş aşağı tədarük qiymətləri kəndlilərin mənafeyinə uyğun deyildi. Bu qiymətlər yeni iqtisadi siyasət dövründə sabitləşmiş azad ticarət qiymətlərindən xeyli aşağı idi. Ona görə də kəndlilər aşağı qiymətlərlə məhsulu dövlətə satmaqdan imtina edir, özünə sərf edən qiymətlərlə satmaq üçün azad bazara can atırdı. Kəndlinin bu istəyi sovet dövləti tərəfindən möhtəkirlik kimi qiymətləndirilir və qanunla cəzalandırılırdı. Kommunist partiyası elliklə kollektivləşməyə keçərkən təkcə kind təsərrüfatı sahəsində deyil, həm də elm, mədəniyyət, təhsil sahəsində də alternativ fikirlərə ma-

lik insanlara qarşı total hücuma keçmişdi ki, bu da 20-30-cu illərdə Azərbaycanda da minlərlə insanın faciəsi ilə nəticələnmişdi. 20-ci illərin ikinci yarısında yeni iqtisadi siyasət xalq təsərrüfatının mürəkkəb vəziyyəti ilə törədilmiş bir sıra çətinlik və təzadlarla rastlaşdı. Zəif sənaye kəndlilərə kifayət qədər gərəkli sənaye mallarını verə bilmirdi. Nəticədə kənd təsərrüfatının inkişafı maddi-texniki bazanın məhdudlaşdırılmış imkanları ilə daha çox qarşılaşırdı. Bu şəraitdə bazar münasibətlərinin təsiri zəifləməyə, kənd təsərrüfatı məhsullarının istehsal tempinin inkişafının sürəti azalmağa başladı. Bu arada sənayeləşmə getdikcə daha çox əmək və maliyyə vəsaitləri tələb edirdi. Şəhər əhalisinin sayı çoxalırdı. Şəhərdə çörək və digər ərzaqların çatışmamazlığı özünü göstərmiş, böhran başlamışdı. Belə bir vəziyyətdə gələcək inkişaf yolları, sənayeləşdirmənin taleyi, ərzaq problemlərinin həlli məsələləri önə çıxarırdı. Bu kimi məsələlər xüsusi siyasi mahiyyət kəsb edirdilər. Lakin, problem və ziddiyyətlərin həllində inzibati-amirlik üsulu ilə sosial-iqtisadi məsələlərin həllinə üstünlük verildi. Kənd təsərrüfatının inkişaf yollarını seçərkən, ölkənin siyasi rəhbərliyi öz əsaslılığını sübuta yetirməyə çalışaraq yeni iqtisadi siyasət xəttindən imtina etdi. Kəndlilərdən ifrat vergilərin yığılması kimi Trotskist ideyalar gerçəkləşməyə başladı. Kəndlilərin lazımı dərəcədə maddi və psixoloji hazırlığı olmadan elliklə kollektivləşmə həyata keçirilməyə başlandı.

Azərbaycanda kolxoz quruluşunun sosial-iqtisadi və siyasi cəhətdən möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirilməsi davam etdirildi, dövlət və ictimai təşkilatların əsas qüvvələri səfərbər edildi, kənd təsərrüfatında texniki rekonstruksiyanın miqyası, əsasən maşın-traktor stansiyalarının yaradılması vasitəsilə genişləndirildi, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi səviyyəsi yüksəldilmişdi. 1930-cu ildə dövlət kolxozlara yardımlar göstərdi, onlara əhəmiyyətli dərəcədə vergi güzəştləri edilmiş, fərdi çalışanlar üçün isə kənd təsərrüfatı vergisinin miqdarı artırılmışdı. Məcburi xarakter daşımağa başlayan dövlət tədarükünün həcmi artırılmışdı. Ancaq yerlərdə özbaşınalıqlar da davam edirdi.[7] Görülən tədbirlər nəticəsində Azərbaycanda 1931-ci ilin əvvəllərində kollektivləşmə faizi 16,2%, mayın sonuna isə 33,6% təşkil etmişdi.[8] İri pambıqçılıq rayonları üzrə isə bu rəqəm orta hesabla 49% təşkil etmişdi.[9] İlin sonunda respublika üzrə bu göstərici 46,3 %-ə qədər, pambıqçılıq rayonlarında isə 62%-ə qədər yüksəlmişdi.[10]

Bu dövrdə Respublikanın kolxozlarında ortabab təsərrüfatların xüsusi çəkisi yüksəlmişdi. Məsələn, əgər 1930-cu ildə bu cür təsərrüfatlar ümumi təsərrüfatların 20%-ni təşkil edirdisə, 1931-ci ilin əvvəllərində bu rəqəm 31% olmuşdu. Elə həmin ildə Azərbaycanda ilk dəfə olaraq 125 min ton pambıq yığıldı ki, bu da 1913-cü il səviyyəsindən 2 dəfə çox idi.[11] Kənd təsərrüfatı maşınlarının təchizatını artırmaqla dövlət və kooperativ-kirayə məntəqələri təşkil olunurdu. 1930-cu il mayın 1-nə qədər Azərbaycanın kənd təsərrüfatına 574 traktordan ibarət 49 maşın traktor dəstəsi və əsasən pambıqçılıq rayonlarında olan 92 rayon emalatxanası xidmət edirdi.[12]

Respublikada qolçomaqlığın bir sinif kimi ləğvinə yönəldilmiş praktik tədbirlər isə ilk dəfə olaraq AKP-nin 3 fevral 1932-ci il tarixli qərarı ilə müəyyənləşdirilmişdi. Burada əkin kampaniyasına qədər torpaq sahələrinin yenidən paylanması, ən yaxşı torpaqların, su sahələrinin qolçomaqlardan müsadirə olunması və kolxozlara verilməsi, qolçomaq mülkiyyətinin qeydiyyata alınması, qolçomaqlığın darmadağın edilməsinin təminatı nəzərdə tutulurdu.[13]

1932-ci ilin iyul ayında respublikada 172 min kəndli təsərrüfatını əhatə edən (respublikanın bütün təsərrüfatlarının 50,6%-i) 3465 kolxoz var idi. Artellərin yarısından çoxuna MTS-lər xidmət göstərirdi.[14]

Bu il ərzində pambıqçılıq rayonlarında kütləvi kollektivləşmə əsas etibarilə başa çatdırıldı. I beşilliyin sonunda bütün ittifaq üzrə 14,7 mln kəndli təsərrüfatı və ya onların ümumi sayının 61,5%-i kollektivləşdirilmişdi. Bütün əkin sahələrinin 75,6%-ni əhatə edən 210 min kolxoz yaradılmışdı.[15]

Bu sahədə I beşilliyin öhdəliyi 3 dəfə artıq yerinə yetirilmiş, iri kənd təsərrüfatı istehsalı təşkilatlanması meydana gətirilmişdi.

İttifaqın mərkəzi orqanları Azərbaycanı kollektivləşmənin keçirildiyi 3-cü qrupa aid edərək, burada kolxoz quruculuğunu 1932-ci ilin yazında başa çatdırmağı nəzərdə tutsa da, yerli rəhbərlərin xüsusi canfəşanlığı nəticəsində bu proses daha sürətlə getmişdi. 1930-cu il yanvarın 15-nə olan məlumata görə Azərbaycanda 74672 təsərrüfatı, başqa sözlə, kəndli təsərrüfatlarının 22,6 faizini birləşdirən 1497 kolxoz var idi.[16] AK(b)P yuxarıdan göstərişlə mərkəzin müəyyən etdiyi müddətdən 2 il əvvəl respublikanın bir sıra rayonlarında kollektivləşmənin başa çatdırılması haqqında qeyri-real qərarlar qəbul edilmişdi.[17]

ÜİK(b)P MK və MNK birləşmiş plenumu (7-12 yanvar 1933-cü il) kolxozların təşkilati-təsərrüfat və siyasi cəhətdən möhkəmləndirilməsini kolxoz quruculuğunun əsas vəzifəsi kimi müəyyənləşdirdi və bu məqsədlə MTS və sovxozların siyasi şöbələrinin yaradılmasına qərar verdi.[18]

Kommunistlərin və bitərəflərin kolxozların möhkəmləndirilməsinə səfərbərlik kampaniyası başlandı.[19]

MTS-lərin siyasi şöbələrinə 17 min kommunist göndərilmişdi. Yerli partiya təşkilatları da rayonlara təşkilatçılar göndərməyə başladılar. 1933-cü il iyun ayında Azərbaycanda siyasi şöbələrin təşkilati prosesi başa çatdı: onlar 29 MTS və 9 sovxozda yarandı. AK(b)P MK oraya işçilər göndərdi. Bu məsələyə verilən önəmin göstəricilərindən biri də o idi ki, siyasi şöbələrin müdirləri arasında 70%-i 1921-ci ilədək partiya stajı olanlar idi.[20] Siyasi şöbələrin fəaliyyəti sayəsində kənd partiya təşkilatları istehsalat prinsipinə əsaslanaraq qurulmağa başlandı. Əgər Mərkəzi Komitənin qərarı ilə 15 iyul 1933-cü il qərarına qədər Azərbaycanın kənd rayonlarında 2003 partiya şöbəsi və namizəd qrupları vardısa, yenidənqurmadan sonra 1933-cü ilin payızında partiya şöbələrinin sayı 2020, namizəd qruplarının sayı 786-ya çatmışdı. Kolxoz dayaq məntəqələrinin və namizəd qruplarının sayı 357-dən 1760-a qədər artmışdı (bütün respublika kolxozlarının 46%-i). Bundan əlavə respublika kolxozlarının 17%-ni təşkil edən 623 kolxozda partiya-komsomol dayaq məntəqələri yaranmışdı.[21] Rayon partiya təşkilatları ilə birgə siyasi şöbələr kolxozçuları kənd təsərrüfatı kütləvi peşə kadrlarının hazırlanması kurslarına göndərirmişər. 1933-cü ildə 18000 kolxozçu, 600 traktorçu, 1934-cü ildə isə 20000 adam bu kurslardan keçmişdi. 1932-35-ci illərdə respublikada 29000 traktorçu, kombaynçı və mexanizator hazırlanmışdı. 1934-cü ilin axırına 70 qadın kolxoz sədri və briqadir vəzifəsinə, 1000-dən yuxarı manqa başçısı, 300-dən çox kolxoz idarə heyətinə, 250-yə yaxın qadın uşaq müəssisələrinə rəhbər vəzifələrə təyin olunmuşdular. [22]

Siyasi şöbələrin fəaliyyəti nəticəsində təkcə 1933-cü ildə respublikanın pambıqçılıq rayonlarından 1763 "sinfi yabancı elementlər" qovmuşdular. Ümumiyyətlə isə, bu dövrdə 3.700 "qolçomaq, oğru və talançı" qovulmuşdu.[23] Bütün bunlara baxmayaraq, 1933-cü ilin sonunda respublikanın kəndlərinin çoxunda ümumiyyətlə kommunist yox idi. 423 kolxozun hər birində bir kommunist var idi, 858 kolxozda isə heç bir nəfər də olsun kommunist fəaliyyət göstərmirdi.[24] Bir çox hallarda onlar heç də təsərrüfat qabaqcılları deyildilər. Kənd kommunistləri eyni zamanda onlara rəhbər iş verilməsini tələb edirdilər, bir kənddə kommunistlərin 1/3-i rəhbər iş axtarırdı.[25]

## Kəndlərdə İnzibati-Amirlik Sisteminin Formalaşması Prosesində Ortaya Çıxan Problemlər

Kollektivləşmənin sürətli və lazımi hazırlıqlar tamamlamadan aparılması özü ilə bir çox problemi də doğurmuşdu. Kolxoz dövrünün əvvəllərində əmək ödənişinin vahid sistemi yox idi. Əməyin hesablanması üzrə kadrların lazımi səviyyədə olmaması işi daha da çətinləşdirirdi. Kənd təsərrüfatının geriliyi, maddi texniki bazanın zəifliyi, kadr çatışmazlığı kolxoz təsərrüfatının geriləməsi səbəblərinin başlıcaları sırasında idi.[26] Uçot, hesabat pis vəziyyətdə idi. Ancaq kolxozların təsərrüfat heyətinin siyahısının yoxlanması nəticəsində, SSRİ-nin Mərkəzi Nəzarət Komitəsinin 1933-cü il fevral tarixli qərarına əsasən respublikada 1000-dən çox adam işdən azad edilmişdi; onlardan 81 nəfəri məhkəməyə verilmişdi.[27]

Kolxozlar və dövlət arasında iqtisadi münasibətlərin tənzimlənməməsi, kolxoz istehsalının təşkili təcrübəsinin, kadrların olmaması da hakimiyyətin arzu etdiyi nəticələri tam əldə etməyə imkan vermirdi.

Kollektivləşmə sahəsində böyük problemlərdən və buraxılan səhvlərdən biri yerlərdə rəhbər kadrlar arasında savadlılıq səviyyəsinin həddən artıq aşağı olması idi. Ə.Qarayev Zaqafqaziya kommunist təşkilatlarının VI qurultayında (iyun 1930-cu il) bu problemi rəsmi olaraq etiraf etmişdi: "yerli rəhbərlər kolxozları təşkil etmək və kolxoz uğrunda təşviqat aparmağı bilmirlər. Kənd təsərrüfatı artellərinin çoxuna azsavadlı və savadsız adamlar başçılıq edirlər".[28]

1933-cü, xüsusilə, 1934-cü ildən respublika kolxozlarının böyüdülməsi prosesi başlandı. 1933-cü ildə respublikanın kənd təsərrüfatı dövlət qarşısında götürdüyü öhdəlikləri yerinə yetirdi.[29] Kollektivləşdirmə sürəti də artmaqda davam edirdi. Kollektivləşdirmənin sürəti 1935-ci ildə və 1936-cı ilin əvvəlində 1933-1934-cü illərdən daha yüksək idi. Əgər 1933-cü ildə respublikanın kənd təsərrüfatında kollektivləşdirilmiş təsərrüfatların artması 6,3%, 1934-cü ildə 7,6% təşkil edirdisə, 1935-ci il-1936-cı ilin birinci rübü ərzində bu artım 19% təşkil edirdi.[30]

Kəndin vəziyyəti ilə bağlı məlum statistik göstəricilərin bir daha nəzərdən keçirilməsi göstərir ki, kəndin maddi-texniki bazasının inkişafı, kadr hazırlığı, məhsul istehsalı, xüsusən pambıqçılıq və s. sahələrdə müəyyən irəliləyişlərlə yanaşı, kəndin, bütün cəmiyyətin sinfi strukturunda da əsaslı dərəcədə dəyişikliklər olmuşdu. Qolçomaqlar bir sinif kimi tamamilə ləğv edilmiş, fərdi təsərrüfatı olan kəndli isə az qalmışdı. 1937-ci ildə respublika əhalisinin 32,3%-i fəhlə və qulluqçular, 50%-i kolxozçu-kəndlilər və kooperasiyalaşmış kustarlar (sənətkarlar), 3,7%-i şagirdlər, hərbi qulluqçular təşkil edirdi. Beləliklə, əhalinin 86% respublika iqtisadiyyatının "sosialist sektorunu" təmsil edir, yerdə qalan 14% fərdi təsərrüfatı olan kəndlilər, koopersiyalarda birləşməyən kustarlar və sənətkarlar idi.[31]

Ancaq digər tərəfdən Respublikada kənd təsərrüfatının texnika ilə təchizatı olduqca acınacaqlı vəziyyətdə idi. Texnikasız təsərrüfatların sayı həddən artıq çox idi.[32] Kənd təsərrüfatının traktorlarla təmin edilməsi planına 1930-cu ildə cəmi 4% əməl olunmuşdu.[33] Azərbaycanda kənd təsərrüfatı maşınqayırma müəssisələri olmaması ciddi çətinliklər yaradırdı. Zaqafqaziya rəhbərliyinin respublikada kənd təsərrüfatı maşınqayırma müəssisələrinin yaradılması təklifinə isə sənaye müəssisə rəhbərləri etinasız yanaşaraq, bunu Azərbaycan şəraitində xeyir verməyəcəyini bildirirdilər.[34] Respublikaya kənd təsərrüfatı texnikası RSFSR-dən, qismən də Ukraynadan gətirilirdi. 1930-cu ildə respublikada olan traktorların 60%-i ehtiyat hissələri problemi ilə üzləşmişdi.[35]

Buna görə də Azərbaycanda kənd təsərrüfatı məhsulları yığımında istifadə olunan

maşınların ehtiyat hissələrini istehsal edən zavod da olmadığından, bəzi ehtiyat hissələrini Bakıda olan digər müəssisələr istehsal etməyə başlamışdı.

## Nəticə

Əgər 1928-ci ildə hər bir kolxozda orta hesabla 16 təsərrüfat var idisə, 1937-ci ildə onların sayı 84-ə çatırdı. Hər bir kolxozda ictimailəşdirilmiş əkinlər müvafiq olaraq, 32 hektardan 264 hektara qədər artmışdı. Lakin, bu göstəricilərə rəğmən, hətta sovet mənbələrinə istinadən statistik rəqəmlərin müqayisəsi real vəziyyətin acınacaqlı olduğunu göstərir. Hətta partiya və dövlət sənədlərindəki saxtakarlığı, rəqəmlərin qəsdən şişirdilməsini nəzərə almasaq belə, sovet mənbələrində qeyd olunmuş rəqəmlər sübut edir ki, pambıq istehsalından başqa digər kənd təsərrüfatı məhsullarının istehsalı 1920-1940-cı illərdə əhali artımından xeyli geri qalırdı. 1920-ci ilə nisbətən əhali 1940-cı ildə 1 milyon 322 min nəfər artdığı halda, taxıl istehsalı 127,2 min ton, ət istehsalı isə cəmi 6 min ton artmışdı. Deməli, adam başına düşən məhsulun həcmi ilə müqayisə aparıldıqda bu 20 il ərzində inkişafın nədən ibarət olduğu üzə çıxır.[36]

Rəsmi mənbələrin təhlili göstərir ki, 30-cu illərin ortalarına qədər Azərbaycanda mövcud olan kolxozlarda torpağın becərilməsində qoşqu heyvanlarından geniş istifadə olunmuşdur. Yalnız 30-cu illərin axırlarında kolxozların texnika ilə təchizi nisbətən yaxşılaşmışdı.[37]

30-cu illərdə kənd təsərrüfatının kollektivləşdirilməsi kənd təsərrüfatını yüksəltmədi və kəndlilərə normal həyat bəxş etmədi. İqtisadi cəhətdən əldə olunan nəticə ilə xalqı yarıac, yarıtox dolandırmaq olardı. Lakin eyni zamanda kəndlərin hesabına sənayeləşmənin tələbatını ödəmək siyasəti kəndlilərin tamamilə müflisləşdirilməsinə və ayrı–ayrı yerlərdə kütləvi aclığın yaranmasına səbəb olmuşdu. Qeyri-iqtisadi, məcburiyyət və zorakılıq metodları, dünyada təsərrüfatın mövcud olan bütün müxtəlif üsullarını praktik olaraq bir forma ilə əvəz edilməsi, kolxoz və kolxozçuların hər cür təsərrüfat müstəqilliyinin aradan qaldırılması, demokratik institutların ləğv edilməsi (kolxoz ittifaqları, kooperasiyanın bir çox növləri) və bürokratik aparatın geniş yayılmış sisteminin yaradılması və s. respublikanın kənd təsərrüfatına böyük ziyan vurmuşdu. Bütövlükdə iqtisadiyyatın normal fəaliyyəti ciddi surətdə pozulmuş, cəmiyyətin idarə edilməsinin inzibati komanda sistemi formalaşmış, sənayedə təsərrüfatçılığın volyuntarist metodlarına üstünlük verilməsi azad rəqabəti aradan qaldırmışdı. Əslində, təsərrüfat hesablı prinsiplər əsasında işləyən kooperasiyalar kollektiv birləşmələrin, bir növ kooperatorların kooperativlərinə çevrilmək vasitəsilə, istehsal, satış, təchizat və digər təsərrüfatlararası kooperativlərdə birləşərək, cəmiyyəti mədəni kooperatorların quruluşu ideyasının həyata keçirilməsinə yaxınlaşdıracaq ictimai-iqtisadi kooperativ strukturu yaranmamalı idi. Bu cür birgə iş, real kollektiv iş təcrübəsi bir sıra ölkələrin təcrübəsində özünü doğrultdu. SSRİ-də, o cümlədən Azərbaycanda kollektiv təsərrüfat adı altında, bu ideyadan istifadə edərək tamamilə başqa bir ictimai-siyasi və iqtisadi quruluş yaradıldı. Lakin kollektiv təsərrüfat düzgün təşkil ediləndə, yüksək səviyyədə ona dövlət qarantı olanda, onun işlərinə kənar müdaxilələr olmadıqda kollektiv təsərrüfatın inkişaf etməsi, hətta bazar iqtisadiyyatı şəraitində rəqabətə davamlı olması mümkündür.

Azərbaycan Respublikasının iqtisadi və siyasi cəhətdən inkişafı elmi-tədqiqat işlərinin daha da genişləndirilməsi üçün imkanları genişləndirir. Gələcəkdə digər sahələrdə olduğu kimi çağdaş Azərbaycan tarixinin öyrənilməsi sahəsində tədqiqat işlərinin genişləndirilməsi tariximizin daha obyektiv öyrənilməsi ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin də güclənməsinə kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. "Бакинский рабочий", 1930, 4, 14 апреля; "Заря Востока", 1930, 12 февраля.
2. Qurbanov B. Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi. (1923-1934). Bakı, 1960, s.110.
3. Məmmədov E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər). Bakı, 1967, s.63.
4. Sов.İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. II hissə (1924 – 1930). Bakı, 1954, s.15, 20.
5. Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК. Т.I. 1920-1937. Баку, 1986, с. 528.
6. Əlimirzəyev X.O. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, 1963, s.76.; Обзор о деятельности правительства за 1929 г. и 1930 г. Баку, 1931, с. 20-21; Подъем коллективизации сельского хозяйства. Стат. сборник. Баку, 1929, с.7.
7. Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, 1990, s. 55-56.
8. "Бакинский рабочий", 1931, 10 июня.
9. Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК. Том первый 1920-1937. Баку, 1986, с. 556.
10. Отчет Азербайджанского Совета Профессиональных Советов к 7 съезду порофсоюзов. Баку, 1932, с. 77; "Бакинский рабочий", 1932, 10 февраля.
11. 20 лет Азербайджанской Советской Социалистической Республике. Баку, 1957, с. 60.
12. Azərbaycan tarixi. 3 cilddə, 3-cü cild, 1-ci kitab, s. 385.
13. Məmmədov E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər). Bakı, 1967, 151 s. , s. 64-65
14. Очерки истории Коммунистической партии Азербайджана. Баку, 1963, 771 с. , с. 491
15. История советского крестьянства и колхозного строительства в СССР М., 1963, с. 278
16. Əlimirzəyev X.O. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, 1963, s. 76
17. Məmmədov E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər). Bakı, 1967, s. 26-28
18. Sов.İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. II hissə (1924 – 1930). Bakı, 1954, s..213.
19. Бакинский рабочий", 1933, 13 января, 28 января,3, 21 февраля, 5, 6, 16 марта, 1934, 17 октября, "Заря Востока", 1933, 24, 25, 28 марта, "Kommunist", 1933, 2 fevral, 7 noyabr.
20. Очерки истории Коммунистической партии Азербайджана. В 3-х тт., т.1. 80-е гг. Х1Х в.- апрел 1920 г. Баку, 1985, с.506
21. Азербайджанская Коммунистическая партия /б/ к XII съезду АКП/б/ и XXI Общебакинской конференции /в цифрах и диаграммах/. Баку, 1934, с.8.
22. "Бакинский рабочий", 1933, 8 марта.
23. Социалистическое хозяйство Закавказья. 1934, № 9, с.132, № 9, с.132; Очерки истории Коммунистической партии Азербайджана. В 3-х тт., т.1. 80-е гг. Х1Х в.- апрел 1920 г. Баку, 1985, с. 509.
24. Очерки истории Коммунистической партии Азербайджана. В 3-х тт., т.1. 80-е гг. Х1Х в.- апрел 1920 г. Баку, 1985, с.15.
25. "Доковец", 1931,31 марта; "Металист",1933, 8 мая.
26. "Бакинский рабочий", 1933, 4 августа; "Красный нефтеперегонщий", 1931, 29 июня; "Металист", 1933, 23 октября; "Доковец", 1933, 7 апреля, 9 июня, 20 февраля; "Социалистическая бухта", 1931, 15 октября.
27. Материалы к отчету ЦКК-РКИ Азербайджанской ССР (январь 1933-декабрь 1933 г.). Баку, 1934, с. 59-66.
28. Məmmədov E.İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər). Bakı, 1967, s.76.
29. "Бакинский рабочий", 1933, 6 октября.
30. История Азербайджана. т. 3, часть 1, Баку, с. 519, 525, 527.
31. 20 лет Азербайджанской Советской Социалистической Республике. Баку, 1957, с.7.
32. "Бакинский рабочий", 1929, 24 июня.
33. "Бакинский рабочий", 1930, 24 октября.
34. Мусабеков Г. Изб. Стат. и речи. т. 1-2, Баку, т. II, с.33-34.
35. "Бакинский рабочий", 1930, 18 февраля.
36. Народное хозяйство Азербайджанской ССР. Стат.сб. Баку, 1957, с. 29.
37. 20 лет Азербайджанской Советской Социалистической Республике. Баку, 1957, с. 51.